# 2022-ci ilin xronikası

**18 yanvar** tarixində Dövlət Gömrük Komitəsində Böyük Britaniya Milli Cinayət Agentliyinin Azərbaycan üzrə məsul əlaqələndiricisi Con Qoldinqin rəhbərlik etdiyi nümyəndə heyəti ilə görüş keçirilib. Görüşdə iki qurum arasında əməkdaşlıq məsələləri müzakirə olunub.

**19 yanvar** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi xanım Vladanka Andreyeva ilə görüşüb. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**24-28 yanvar** tarixlərində Ümumdünya Gömrük Təşkilatının Avropa Regionu üçün nəzərdə tutulan elektron ticarət üzrə onlayn seminarı keçirilib. Seminarda Azərbaycan Respublikasını Dövlət Gömrük Komitəsini sədrin birinci müavini, gömrük xidməti general-leytenantı İsmayıl Hüseynov təmsil edib.

**27 yanvar** tarixində ölkəmizdə fəaliyyət göstərən bank və sığorta şirkətlərinin nümayəndələri üçün "Ümumi tranzit proseduru üçün gömrük zəmanət sistemi" mövzusunda seminar keçirilib. Seminar Avropa İttifaqının dəstəyi ilə icra edilən "Ümumi Tranzit Proseduru Konvensiyası, Mallarla Ticarətdə Sənədləşmənin Sadələşdirilməsi Konvensiyası və Yeni Kompüterləşdirilmiş Tranzit Sisteminə (YKTS) qoşulmaq prosesində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinə Dəstək" tvinninq layihəsi çərçivəsində təşkil olunub. Məqsəd ölkəmizdə bank və sığorta şirkətlərini tranzit prosedurunda gömrük zəmanətinə dair Avropa İttifaqının qanunvericiliyi ilə tanış etmək olub. Tədbirdə Dövlət Gömrük Komitəsi, İqtisadiyyat Nazirliyi, İtaliya Aksiz, Gömrük və İnhisar Agentliyinin mütəxəssisləri, bank və sığorta şirkətlərinin 30-a yaxın nümayəndəsi iştirak edib.

**28 yanvar** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev Azərbaycan Gömrük Xidmətinin yaradılmasının 30 illiyi münasibətilə ölkəmizdə səfərdə olan Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriyanı qəbul edib. Görüşdə, Azərbaycan Gömrük Xidmətində aparılan islahatlar, bu islahatlar nəticəsində şəffaflığın təmin olunması, fiziki təmasın minimuma endirilməsi, kölgə iqtisadiyyatının aradan qaldırılması, ölkəmizin ixrac və tranzit imkanlarının artırılması, beynəlxalq ticarətin asan və sürətli şəkildə həyata keçirilməsi istiqamətində əldə olunan mühüm nailiyyətlərdən bəhs edilib. Qonaq tərəfindən Azərbaycanın bölgədə ticarət və nəqliyyat qovşağına çevrilməsi istiqamətində gömrük sistemindəki islahatların əhəmiyyəti, gömrük sahəsində əməliyyatların kağızsız texnologiyalarla, təmassız, rəqəmsal formatda həyata keçirilməsində Azərbaycan gömrüyünün əldə etdiyi təcrübənin nümunə təşkil etdiyi, güzgülü statistika ilə bağlı DGK sədrinin təşəbbüsünü təqdir etdiyi, Azərbaycan gömrüyünün ÜGT-nin Avropa regionuna sədr müavinliyi dövründə uğurlu fəaliyyət göstərdiyi vurğulanıb. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



**28 yanvar** tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə səfərdə olan Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriyanı videoformatda qəbul edib. Görüşdə, Prezident İlham Əliyev Azərbaycanla Ümumdünya Gömrük Təşkilatı arasında səmərəli əməkdaşlıqdan və təşkilatın ölkəmizə göstərdiyi dəstəkdən bəhs edib, Ümumdünya Gömrük Təşkilatının Baş katibinin Azərbaycanla əməkdaşlığı daim diqqət mərkəzində saxlamasını yüksək qiymətləndirdiyini vurğulayıb. Öz növbəsində, Kunio Mikuriya Azərbaycanda gömrük xidmətinin yaradılmasının 30 illiyi ərəfəsində Bakıda olmasından məmnunluğunu ifadə edib, ölkəmizin regionda və dünyada rolunun artması münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırıb. Rəhbərlik etdiyi təşkilatın Azərbaycanda gömrük sahəsində aparılan islahatlara dəstəyinin davam edəcəyini vurğulayaraq, Azərbaycanın regional inkişaf və nəqliyyat qovşağı mərkəzinə çevrildiyini bildib. O, Cənubi Qafqaz regionunda yaranmış sabitliyin regional əməkdaşlıq, insanlararası təmaslar və nəqliyyat bağlantılarının inkişafı üçün əlverişli imkanlar yaratdığını qeyd edib. Görüşdə Azərbaycan ilə Ümumdünya Gömrük Təşkilatı arasında əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.



**29 yanvar** tarixində Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriya ADA Universitetində "Postpandemiya dövründə dayanıqlı ticarətin təmin edilməsində gömrüyün artan rolu" mövzusunda məruzə ilə çıxış edib. Tədbirdə Dövlət Gömrük Komitəsinin rəhbərliyi, ADA Universitetinin, Dövlət Gömrük Komitəsi Akademiyasının, Azərbaycan Dövlət İqtisad Universitetinin tələbələri iştirak edib. Məruzədən sonra ÜGT Baş katibi auditoriyanın suallarını ətraflı cavablandırıb. Tədbirdən əvvəl ÜGT Baş katibi ADA Universiteti ilə tanış olub, qonağa bu təhsil ocağının fəaliyyəti, tədris prosesinin təşkili barədə məlumat verilib.

**4 fevral** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev Belarus Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Andrey Ravkov ilə görüşüb. Görüşdə, qarşılıqlı maraq doğuran bəzi məsələlər ətrafında fikir mübadiləsi aparılıb, birgə əməkdaşlığın perspektivləri müzakirə olunub.

**8 fevral** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev Azərbaycanda Amerika Ticarət Palatasının (AmCham) prezidenti Nuran Kərimovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

**8 fevral** tarixində Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-leytenantı İsmayıl Hüseynov Azərbaycan-Pakistan iqtisadi əməkdaşlıq palatasının prezidenti Khurram Bhatti ilə görüşüb. Görüşdə Komitənin aidiyyəti strukturlarının nümayəndələri, Pakistanın ölkəmizdəki səfirinin müavini Moazzam Ali Sahito da iştirak ediblər. Görüşdə Dövlət Gömrük Komitəsi ilə Azərbaycan-Pakistan iqtisadi əməkdaşlıq palatası arasında daimi işçi qrupun formalaşdırılması, əlaqələrin daha da gücləndirilməsi qərara alınıb.

**10 fevral** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev Pakistan İslam Respublikası Federal Gəlirlər Şurasının Gömrük əməliyyatları üzrə rəhbəri Syed Muhammad Tariq Hudanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə, qarşılıqlı maraq doğuran bəzi məsələlər ətrafında fikir mübadiləsi aparılıb, birgə əməkdaşlığın perspektivləri müzakirə olunub. Həmçinin Dövlət Gömrük Komitəsi adından Pakistan İslam Respublikası Federal Gəlirlər Şurasının Gömrük əməliyyatları üzrə rəhbərinə gömrük orqanları ilə səmərəli əməkdaşlığa görə "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 30 illiyi (1992-2022)" Azərbaycan Respublikasının yubiley medalını təqdim edilib. Görüşdə Pakistan İslam Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Billa Haye də iştirak edib.



**15 fevral** tarixində Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-leytenantı İsmayıl Hüseynov ilə Rusiya Federasiyasının ölkəmizdəki səfirliyinin gömrük məsələləri üzrə müşaviri Georgiy Pesçanskix arasında görüş keçirilib. Görüşdə Azərbaycan və Rusiya arasında bütün sahələrdəki səmərəli əməkdaşlıqdan məmnunluqla bəhs olunub, qarşılıqdı ticarət dövriyyəsinin artırılması, hər iki ölkə ərazisindən keçən nəqliyyat dəhlizlərinin cəlbediciliyinin artırılmasında gömrük xidmətlərinin mühüm rol oynadığı diqqətə çatdırılıb. Həmçinin Rusiya ilə sərhəddə yerləşən "Samur", "Xanoba" və müqabil tərəfdəki gömrük postlarında mövcud vəziyyət, gömrük-keçid məntəqələrinin buraxılış qabiliyyətinin artırılması, sərhədkeçmə proseslərinin sürətləndirilməsi, prosedurların sadələşdirilməsi məsələləri müzakirə olunub. Görüş çərçivəsində Georgiy Pesçanskix gömrük işinin inkişafına və gömrük xidmətlərinin birliyinin möhkəmləndirilməsinə verdiyi töhfəyə görə Rusiya Federal Gömrük Xidmətinin rəhbəri Vladimir Bulavinin əmrinə əsasən Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyevin "Gömrük birliyinin gücləndirilməsinə görə" medalı ilə təltif edildiyini bildirib. Eyni zamanda, Komitə sədrinin birinci müavini İsmayıl Hüseynov və Komitə sədrinin müavinləri Əsgər Abdullayev, İqbal Babayev, Cavad Qasımov, eləcə də Beynəlxalq Əməkdaşlıq İdarəsinin rəisi Dilavər Fərzəliyevin Rusiya Federal Gömrük Xidmətinin fəxri fərmanları və təşəkkürnamələrlə təltif olunduğu diqqətə çatdırılıb.

**17 fevral** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyevlə Amerika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Örl Litzenberqer arasında görüş keçirilib. Görüş Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin 2022-ci ildə İxraca Nəzarət və Sərhəd Təhlükəsizliyi (EXBS) proqramının Mobil Aşkarlama Avadanlığının Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinə ianəsi çərçivəsində baş tutub. Görüşdə, həmçinin birgə əməkdaşlığın perspektivləri müzakirə olunub. Sonda tədbir iştirakçıları ABŞ Dövlət Departamentinin İxraca Nəzarət və Sərhəd Təhlükəsizliyi (EXBS) proqramı çərçivəsində təqdim etdiyi Mobil Aşkarlama Avadanlığına baxış keçirilib.



**21 fevral** tarixində Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-leytenantı İsmayıl Hüseynovun rəhbərlik etdiyi nümayəndə heyəti Rusiya Federasiyasının Dağıstan Respublikasında rəsmi səfərdə olub. Səfər Azərbaycan-Rusiya sərhədində, Samur-Yaraq-Qazmalar gömrük-sərhəd buraxılış məntəqəsində yaranmış avtonəqliyyat vasitələrinin sıxlığının aradan qaldırılması məsələsinin müzakirə edilməsi məqsədilə həyata keçirilib. Səfər zamanı Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin və Dövlət Sərhəd Xidmətinin, eləcə də Rusiyanın Federal Gömrük Xidmətinin, Federal Dövlət Xəzinə İdarəsinin dövlət müəssisəsi olan "Rosqranstroy"un və Federal Təhlükəsizlik Xidmətinin Sərhəd İdarəsi əməkdaşlarının iştirakı ilə ikitərəfli görüş keçirilib. Görüşün yekunları üzrə "Şirvanlı" - "Novo-Filya" gömrük-sərhəd buraxılış məntəqəsinin 24 saatlıq iş rejimində fəaliyyət göstərməsi və buradan dolu yük maşınlarının keçidinin təmin edilməsi məsələsi geniş müzakirə olunub.

**23 fevral** tarixində Dövlət Gömrük Komitəsində İspaniya Krallığının Türkiyə Respublikasındakı Səfirliyində Daxili İşlər Nazirliyinin məsləhətçisi Antonio Miqel Doblas Ximenesin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**3 mart** tarixində Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisinin təşkilatçılığı ilə "Narkotik vasitələrin və psixotrop maddələrin beynəlxalq xarakter daşıyan qanunsuz dövriyyəsi: yayılma arealı və mövcud daşınma kanalları" mövzusunda vebinar keçirilib. Vebinara ÜGT-nin Avropa Regionunda təmsil olunan 30 ölkənin gömrük administrasiyalarından 296 nümayəndə qatılıb. Tədbirdə Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayev, DGK Əməliyyat-İstintaq Baş İdarəsinin rəisi, gömrük xidməti general-mayoru Məsum Rəsulov, Mərkəzi Asiya Regional İnformasiya-Əlaqələndirmə Mərkəzi (CARICC), BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (UNODC), Narkotiklərlə Mübarizə üzrə Tədris Akademiyası (NEA), ATƏT-in Bişkek Ofisinin ekspertləri və ÜGT-nin Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisinin nümayəndələri iştirak ediblər. Sonda vebinarda müzakirə edilən məsələlər ətrafında fikir mübadiləsi aparılıb, iştirakçıların sualları cavablandırılıb.

**15-17 mart** tarixlərində Azərbaycan gömrükçüləri Böyük Britaniyanın Biçester şəhərində "Nəqliyyat vasitələrinin axtarışı" mövzusunda keçirilən təlim kursunda iştirak ediblər. Tədbir Birləşmiş Krallıq Ordusu Beynəlxalq Müdafiə Təliminin təşkilatçılığı ilə baş tutub. Üçgünlük təlimin əsas məqsədi nəqliyyat vasitələrinin təhlükəsiz və effektiv şəkildə axtarışı üzrə Böyük Britaniya təcrübəsini öyrənmək olub.

**28-29 mart** tarixlərində Dövlət Gömrük Komitəsinin sədr müavini, gömrük xidməti general-mayoru Cavad Qasımovun rəhbərlik etdiyi nümayəndə heyəti Qətər Dövlətinin Doha şəhərində keçirilmiş Texniki Yardım Benefisiarlarının İllik Forumunda iştirak edib. BMT-nin Terrorizmə qarşı Mübarizə İdarəsinin və Qətər Dövlətinin təşkilatçılığı ilə keçirilən Foruma texniki yardım üzrə benefisiar ölkələrin, donorların və potensialın artırılması üzrə ixtisaslaşmış təşkilatların nümayəndələri qatılıb.

**29 mart** tarixində Avropa İttifaqının maliyyə, İtaliya Gömrük, Aksiz və İnhisar Agentliyinin isə ekspert dəstəyi ilə 2020-ci ilin iyun ayından həyata keçirilən layihə çərçivəsində "Ümumi Tranzit Proseduru Konvensiyası, Mallarla Ticarətdə Sənədləşmənin Sadələşdirilməsi Konvensiyası və Yeni Kompüterləşdirilmiş Tranzit Sisteminə (YKTS) qoşulmaq prosesində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinə Dəstək" tvinninq layihəsinin yekun konfransı keçirilib. Konfransda Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyevin və İtaliya Gömrük, Aksiz və İnhisar Agentliyinin direktoru Marsello Minennanın rəhbərliyi ilə nümayəndə heyətləri iştirak ediblər.

**29 mart** tarixində "Ümumi Tranzit Proseduru Konvensiyası, Mallarla Ticarətdə Sənədləşmənin Sadələşdirilməsi Konvensiyası və Yeni Kompüterləşdirilmiş Tranzit Sisteminə (YKTS) qoşulmaq prosesində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinə Dəstək" tvinninq layihəsinin yekun konfransı çərçivəsində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev İtaliya Gömrük, Aksiz və İnhisar Agentliyinin direktoru Marsello Minenna ilə görüşüb. Görüşdə "Ümumi Tranzit Proseduru Konvensiyası, Mallarla Ticarətdə Sənədləşmənin Sadələşdirilməsi Konvensiyası və Yeni Kompüterləşdirilmiş Tranzit Sisteminə (YKTS) qoşulmaq prosesində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinə Dəstək" tvinninq layihəsi çərçivəsində İtaliya gömrük xidməti ilə tərəfdaşlıqdan məmnunluq ifadə edilib, həmçinin Dövlət Gömrük Komitəsi ilə əməkdaşlıqdan razı qalındığı və bu günədək layihə ilə bağlı səmərəli iş aparıldığı vurğulanıb. Görüşdə qarşılıqlı maraq doğuran bəzi məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



**31 mart** tarixində gömrük sistemində informasiya texnologiyalarının tətbiqi ilə bağlı Azərbaycan təcrübəsinin öyrənilməsi məqsədilə Azərbaycan və Türkmənistan gömrük orqanlarının mütəxəssislərinin iştirakı ilə onlayn formatda görüş keçirilib. Görüşdə Azərbaycan və Türkmənistan gömrük xidmətlərinin informasiya texnologiyalarının tətbiqi, gömrük nəzarəti və beynəlxalq əlaqələrin təşkili üzrə məsul nümayəndələri iştirak ediblər.

**6 aprel** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev Meksika Birləşmiş Ştatlarının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Rodrigo Labardini ilə görüşüb. Görüşdə qarşılıqlı maraq doğuran bəzi məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**7 aprel** tarixində Dövlət Gömrük Komitəsinin nümayəndə heyəti və Koreyanın "KCNET" şirkətinin mütəxəssisləri arasında "Gömrük sisteminin modernləşdirilməsi üzrə məsləhətləşmə layihəsi - 2022" çərçivəsində onlayn formatda görüş keçirilib. Tədbirdə sözügedən layihə ilə bağlı müzakirələr aparılıb, qarşılıqlı maraq doğuran bəzi məsələlər ətrafında fikir mübadiləsi aparılıb, suallar cavablandırılıb.

**5 may** tarixində Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzi və Mərkəzi Gömrük Hospitalının birgə təşkilatçılığı, eləcə də "EGİS Pharmaceuticals PLC", "Eva Farm" və "Gedeon Richter" şirkətlərinin əməkdaşlığı ilə 5 may-Beynəlxalq mama gününə həsr edilmiş "Hamiləlikdə genital və ekstragenital xəstəliklər" mövzusunda Beynəlxalq Elmi Konqres keçirilib. Hibrid formatda təşkil olunmuş konqresdə Avropa Kosmetik və Rekonstruktiv Ginekologiya Cəmiyyətinin, İstanbul Aydın Universitetinin, İstanbul Aydın Universiteti Xəstəxanasının Süni Mayalanma Mərkəzinin, Türkiyə Ginekolojik Endoskopiya Cəmiyyətinin və Türkiyənin Florence Nightingale Xəstəxanalar Qrupunun nümayəndələri iştirak ediblər.

**10 may** tarixində İran islam Respublikasının Culfa şəhərində Azərbaycan Respublikası ilə İran İslam Respublikasının gömrük xidməti nümayəndələri arasında görüş keçirilib. İkitərəfli görüşdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev, Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səhət Həbibbəyli, İran İslam Respublikasının Gömrük naziri Alirza Müqəddəsi, Şərqi Azərbaycan Vilayəti Gömrüyünün rəisi Leili Orangi, Culfa-Mərənd bölgəsi üzrə millət vəkili Məsumə Paşayi və digər şəxslər iştirak ediblər. Tərəflər 11 mart 2022-ci il tarixli "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu"nun icrasından irəli gələn aidiyyəti gömrük məsələlərinin həlli istiqamətində qarşılıqlı fəaliyyətin həyata keçirilməsi, idxal-ixrac əməliyyatlarının müqayisəli gömrük statistikasının aparılması üzrə tədbirlərin görülməsi, yeni gömrük buraxılış məntəqələrinin açılması və mövcud buraxılış məntəqələrində infrastrukturun təkmilləşdirilməsi istiqamətində danışıqlar aparıblar. Sonra Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə İran İslam Respublikası Gömrük İdarəsi arasında 2022-2023-cü illərdə gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardımın genişləndirilməsinə dair Tədbirlər Planı imzalanıb.

**12 may** tarixində Azərbaycandan tranzit keçməklə Gürcüstan, Türkiyə marşrutu ilə hərəkət edən yük nəqliyyat vasitələrinin gömrük-keçid məntəqələrində yaranan sıxlıqlarının aradan qaldırılması məqsədilə gömrük orqanlarının nümayəndələri arasında üçtərəfli görüş keçirilib. Türkiyə Respublikası ilə Gürcüstan arasındakı Sarp gömrük-keçid məntəqəsində keçirilən görüşdə Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-leytenantı İsmayıl Hüseynov, Komitə sədrinin müavini, gömrük xidməti general-mayoru Cavad Qasımov, Azərbaycanın Batumi şəhərindəki Baş konsulu Pərviz İsmayılzadə, Türkiyə Respublikası Kaşqar Ticarət və Gömrük bölgə müdiri Rəcəp Bilgiç, Gürcüstan Maliyyə Nazirliyinin Gəlirlər Xidmətinin Gömrük departamentinin rəhbəri Zurab Siçinava iştirak ediblər. Görüşdə hər üç ölkə arasında müxtəlif sahələrdə qurulan strateji əməkdaşlıq münasibətlərindən bəhs edilib, beynəlxalq tranzitin inkişafı, regiondan keçən nəqliyyat dəhlizlərinin cəlbediciliyinin artırılması məqsədilə birgə fəaliyyətin gücləndirilməsinin vacibliyi vurğulanıb, son dövrlərdə hər üç ölkənin ərazisindən tranzit qaydada keçən nəqliyyat vasitələrinin sayının kəskin şəkildə artdığı bildirilib və sərhədkeçmə proseslərinin sürətləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

**12-13 may** tarixlərində Dövlət Gömrük Komitəsinin Akademiyasının (DGKA) və Türkiyənin Ege Universitetinin Türk Dünyası Araşdırmaları İnstitutunun birgə təşkilatçılığı ilə "Soyuq müharibədən sonrakı dövrdə sosial, iqtisadi və siyasi inkişaf kontekstində Cənubi Qafqaz" mövzusunda II beynəlxalq Simpozium keçirilib. Onlayn formatda seksiyalarla iki gün davam edən simpoziuma hər iki ali təhsil müəssisəsinin nümayəndələri ilə yanaşı Özbəkistan, Gürcüstan, Rusiya və Ukraynadan da alim-tədqiqatçılar qatılıblar.

**13 may** tarixində gömrük sərhəd buraxılış məntəqələrində yük nəqliyyat vasitələrindən ibarət sıxlıqların yaranma səbəbləri və onların aradan qaldırılması ilə bağlı Azərbaycan, Gürcüstan və Türkiyə gömrük xidmətlərinin rəhbər vəzifəli şəxslərinin görüşü çərçivəsində Gürcüstanda səfərdə olan Dövlət Gömrük Komitəsinin nümayəndə heyəti gürcüstanlı həmkarları ilə görüş keçiriblər. Görüşdə Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-leytenantı İsmayıl Hüseynov, Komitə sədrinin müavini, gömrük xidməti general-mayoru Cavad Qasımov və Komitənin aidiyyəti strukturlarının əməkdaşları, Gürcüstan Maliyyə Nazirliyinin Gəlirlər Xidmətinin rəhbəri Levan Kakava, qurumun rəis müavini Vladimir Xundadze və həmin nazirliyin Gömrük departamentinin rəhbəri Zurab Siçinava iştirak ediblər. Nümayəndə heyətləri iki ölkənin sərhədində yerləşən "Sadıxlı" və "Qırmızı Körpü" gömrük postlarında mövcud vəziyyətlə də tanış olublar, nəqliyyat vasitələrinin keçidinin intensivliyinin artırılması istiqamətində operativ tədbirlərin görülməsinin vacibliyini vurğulayıblar. Eyni zamanda, tərəflər iki ölkə arasındakı mövcud sazişə əsasən inşası nəzərdə tutulan və birgə gömrük nəzarətinin təşkil olunacağı "İpək yolu" "Abreşumis Qza" gömrük postunun yerləşdiyi əraziyə baxış keçirib, layihələndirmə işləri ilə yaxından tanış olub, bu istiqamətdə gömrük orqanları və sərhəd xidmətləri arasında birgə fəaliyyətin təşkili, iş planının hazırlanması ilə bağlı müzakirələr aparıblar.

**16 may** tarixində Dövlət Gömrük Komitəsinin Akademiyasında Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Li Litzenberqerlə görüş keçirilib. ABŞ səfirliyinin dəstəyi ilə Dövlət Gömrük Komitəsinin Akademiyasında qurulan linqafon kabinetinin açılışı münasibətilə təşkil olunan görüşdə Dövlət Gömrük Komitəsinin, Akademiyanın rəhbərliyi, əməkdaşları, ABŞ-ın Azərbaycandakı səfirliyinin nümayəndə heyəti iştirak ediblər.

**6-20 may** tarixlərində Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində "Mənşə qaydaları və Məcburi qərarlar" mövzusunda milli seminar keçirilib. ÜGT tərəfindən təşkil olunan seminarda Dövlət Gömrük Komitəsinin aidiyyəti qurumlarından 25 nəfər əməkdaş iştirak edib. Seminarda ÜGT-nin Tarif və Ticarət məsələləri üzrə Direktorluğunun ekspertləri, eyni zamanda Dövlət Gömrük Komitəsinin mütəxəssisləri tərəfindən Beynəlxalq ticarətdə mənşə qaydalarının təqdim edilməsi, Preferensial mənşə qaydaları üzrə texniki məsələlər, Mənşə sertifikatının verilməsi, Mənşənin təsdiq edilməsi, Mənşə ilə bağlı məcburi qərarlar, Məcburi qərarlar, Malın uyğunluğunun istehsalçının özü tərəfindən təsdiq edilməsi ilə bağlı milli qabaqcıl təcrübələr mövzularında təqdimatlar nümayiş etdirilib və praktiki məşğələlər keçirilib.

**18 may** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counzun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə, ölkəmizdə neft sektorunun inkişafı naminə BP şirkətinin gördüyü işlərdən, BP ilə gömrük orqanları arasında əlaqələrdən bəhs edilib, Azərbaycan gömrük xidmətində aparılan islahatlar və əldə olunan nailiyyətlər barədə danışılıb. Həmçinin qonaqlara DGK-nın elektron informasiya sistemləri ilə bağlı təqdimat da nümayiş etdirilib. Görüşdə qarşılıqlı maraq doğuran bəzi məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Görüşün sonunda Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counzu və şirkətin Xəzər regionunda kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəylini "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 30 illiyi (1992-2022)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edib.



**20 may** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev ilə Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Baş katibinin müavini Rikardo Trevino Çapa arasında videokonfrans formatında görüş keçirilib. Görüşdə ÜGT-nin Strateji planı və təşkilatda seçkilərlə bağlı məsələlər müzakirə olunub.

**23 may** tarixində Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzi və Mərkəzi Gömrük Hospitalının birgə təşkilatçılığı ilə “Allergik xəstəliklərin diaqnostikası və müalicəsinə müasir yanaşmalar” mövzusunda hibrid formatında beynəlxalq elmi seminar keçirilib.

**23-27 may** tarixlərində Seneqal Respublikası Baş Gömrük İdarəsinin nümayəndə heyətinin ölkəmizdə səfəri baş tutub. Səfərdə məqsəd Azərbaycan gömrük orqanlarının əldə etdiyi qabaqcıl təcrübələri öyrənmək, eyni zamanda, potensialın gücləndirilməsi sahəsində əməkdaşlığı gücləndirmək olub. 24 may tarixində Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-leytenantı İsmayıl Hüseynov Seneqal Respublikası Baş Gömrük İdarəsinin gömrük əməliyyatları üzrə direktoru Mbaye Ndiayenin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə, Azərbaycan gömrük xidmətində aparılan islahatlardan, əldə olunan nailiyyətlərdən bəhs edilib, hər iki ölkənin gömrük xidmətləri arasında əməkdaşlıq əlaqələrinin perspektivlərindən danışılıb və qarşılıqlı münasibətlərin daha da gücləndiriləcəyi vurğulanıb. Təmsil etdiyi qurumun fəaliyyəti, ölkəmizə səfərin önəmi barədə danışan Mbaye Ndiaye Azərbaycan gömrüyünün əldə etdiyi qabaqcıl təcrübələrin öyrənilməsi və tətbiqində maraqlı olduqlarını diqqətə çatdırıb. Sonda Azərbaycan gömrüyünün fəaliyyəti, tətbiq edilən yeniliklər barədə təqdimat nümayiş etdirilib, qonaqları maraqlandıran suallar ətraflı cavablandırılıb. Səfər çərçivəsində, Seneqal Respublikası Baş Gömrük İdarəsinin nümayəndə heyəti Dövlət Gömrük Komitəsinin Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsinin, Bakı Baş Gömrük İdarəsinin, ÜGT-nin Regional Kinoloji statusuna malik DGK-nın Kinoloji Mərkəzinin, Dövlət Gömrük Komitəsinin Akademiyasının, ÜGT-nin Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisinin iş fəaliyyəti ilə tanış olub.



**23-27 may** tarixlərində Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində “Strateji ticarət və ixrac üzrə nəzarət” mövzusunda təlim keçirilib. Tədbir BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsi və ÜGT-nin birgə layihəsi olan “Qlobal Konteyner Daşımalarına Nəzarət Proqramı” çərçivəsində təşkil olunub. Təlimdə Dövlət Gömrük Komitəsinin aidiyyəti qurumlarının əməkdaşları iştirak ediblər.

**23-28 may** tarixlərində “Sərnişinlərə dair ilkin məlumat” (API) və “Sərnişin adlarının qeydiyyatı” (PNR) sistemləri üzrə interaktiv təlim keçirilib. Tədbir BMT-nin “Terrorçuların Səyahətinin Qarşısının Alınması Proqramı” çərçivəsində təşkil olunub. Təlimdə Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Təhlükəsizlik Xidməti, Xarici Kəşfiyyat Xidməti, Dövlət Sərhəd Xidməti, “Azərbaycan Hava Yolları” QSC və Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin əməkdaşları iştirak edib. Təlim zamanı BMT, BMqT və sözügedən sahədə qabaqcıl təcrübəyə malik ölkələrin mütəxəssisləri tərəfindən təhlükəli mühit, API və PNR üzrə hüquqi tələblər, terror riski və sərhəd, sərhəd idarəçiliyinə mərhələli yanaşma, indikatorların inkişaf etdirilməsi və digər mövzularda təqdimatlar nümayiş etdirilmiş və müzakirələr aparılıb.

**31 may** tarixində Dövlət Gömrük Komitəsinin rəhbərliyi ilə Azərbaycanda Amerika Ticarət Palatasının (“AmCham”) üzvləri arasında görüş keçirilib. Tədbirdə gömrük sistemində yeniliklərlə bağlı sahibkarların məlumatlandırılması, gömrük-biznes münasibətlərinin, qarşılıqlı dialoqun gücləndirilməsi, gömrük prosedurlarının və ticarətin asanlaşdırılması məsələləri müzakirə edilib, biznes nümayəndələrinin, Palata üzvlərinin təklifləri dinlənilib və sahibkarları maraqlandıran suallar ətraflı cavablandırılıb.

**31 may – 4 iyun tarixlərində** Özbəkistan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-mayoru Akmalxuja Mavlonovun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə rəsmi səfərdə olub. 1 iyun tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev Özbəkistan gömrük xidmətinin nümayəndə heyətini qəbul edib. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb. Həmçinin, gömrük sistemində informasiya-kommunikasiya texnologiyalarının, kadr potensialının gücləndirilməsi, qaçaqmalçılıqla mübarizə və s. sahələrdə əməkdaşlıq məsələlərinə toxunulub. Görüşün sonunda “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Özbəkistan Respublikasının Dövlət Gömrük Komitəsi arasında 2022-2023-cü illər üçün Qarşılıqlı Fəaliyyət Planı” imzalanıb. Səfər çərçivəsində nümayəndə heyəti Dövlət Gömrük Komitəsinin Akademiyasının, “Azərterminalkompleks” Birliyinin, Kinoloji Mərkəzin, ÜGT-nin Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisinin və Bakı Baş Gömrük İdarəsinin iş fəaliyyəti ilə tanış olublar.

**8-9iyun tarixlərində** Qırğızıstanın paytaxtı Bişkek şəhərində Türk Dövlətləri Təşkilatının Gömrük Xidməti Rəhbərlərinin 8-ci iclası keçirilib. İclasda Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-leytenantı İsmayıl Hüseynovun rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib.



**10 iyun tarixində** Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyevlə BMT Baş katibinin terrorla mübarizə üzrə müavini, Terrorla Mübarizə İdarəsinin rəhbəri Vladimir Voronkov arasında onlayn formatda "Dövlət Gömrük Komitəsi ilə təmsil olunan Azərbaycan Respublikasının Hökuməti və BMT-nin Terrorla Mübarizə İdarəsi ilə təmsil olunan Birləşmiş Millətlər Təşkilatı arasında Anlaşma Memorandumu" imzalanıb. Qeyd edək ki, imzalanan memorandum tərəflər arasında "Sərnişinlərə dair ilkin məlumat" (APİ) və "Sərnişin adlarının qeydiyyatı" (PNR) sahəsində gələcək əməkdaşlıq istiqamətlərinin daha da genişləndirilməsinə, birgə fəaliyyət mexanizmlərinin işlənib hazırlanmasına öz töhfəsini verəcək.

**13-17 iyun tarixlərində** Qırğız Respublikası Maliyyə Nazirliyi yanında Dövlət Gömrük Xidmətinin nümayəndə heyəti ölkəmizdə rəsmi səfərdə olub. İyunun 13-də Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-mayoru İqbal Babayev nümayəndə heyətini qəbul edib. Görüşdə qurumlar arasında ikitərəfli əlaqələrin səviyyəsindən danışılıb, eyni zamanda gömrük sistemində informasiya-kommunikasiya texnologiyaları, risklərin idarəolunması sisteminin tətbiqi, qaçaqmalçılıqla mübarizə və sairə sahələrdə əməkdaşlıq məsələlərinə toxunulub. Görüşdən sonra nümayəndə heyəti Dövlət Gömrük Komitəsinin "Hədəf" Mərkəzinin fəaliyyəti ilə tanış olub. Nümayəndə heyəti səfər çərçivəsində Dövlət Gömrük Komitəsinin Akademiyasının, ÜGT-nin Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisinin və Bakı Baş Gömrük İdarəsinin iş fəaliyyəti ilə də tanış olublar.

**21 iyun tarixində** Azərbaycan və Özbəkistan gömrük xidmətlərinin kinoloji mərkəzlərinin rəhbərləri arasında onlayn formatda görüş keçirilib. Görüşdə hər iki mərkəzin kinologiya sahəsində əldə etdikləri uğurlar, həmçinin damazlıq və dölçülük sahəsində əməkdaşlıq perspektivləri, eləcə də Özbəkistan Respublikasında keçiriləcək MDB üzv dövlətləri gömrük xidmətlərinin kinoloji strukturlarının çoxnövçülükdə birincilik üzrə yarışlarda iştirak barədə müzakirələr aparılıb.

**21 iyun tarixində** Dövlət Gömrük Komitəsində İran İslam Respublikası Hüquq Mühafizə Qüvvələrinin Komandanlığının Narkotiklərlə Mübarizə Polisinin rəisi Məcid Kəriminin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib. Nümayəndə heyətini Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-mayoru Cavad Qasımov qəbul edib. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Sonra nümayəndə heyəti Dövlət Gömrük Komitəsinin Kinoloji Mərkəzini ziyarət edib və qurumun fəaliyyəti ilə tanış olub.

**20-25 iyun tarixlərində** Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-leytenantı İsmayıl Hüseynovun rəhbərlik etdiyi nümayəndə heyəti Ümumdünya Gömrük Təşkilatının Siyasi Komissiyasının 86-cı və Şurasının 139/140-cı sessiyalarında iştirak etmək üçün Belçika Krallığında səfərdə olub. Sessiyanın ilk iş günündə tədbirin gündəliyi qəbul olunub, Şura sədri və Ümumdünya Gömrük Təşkilatı Baş katibinin ÜGT Strateji Planının icrasına dair hesabatları, COVID-19 Fəaliyyət Planına dair yekun hesabat və ÜGT iş proqramlarının uzlaşdırılmasına dair çıxışlar dinlənilib. İclasda eyni zamanda Fəaliyyətin Qiymətləndirilməsi üzrə İşçi Qrupun mandatının uzadılması məsələsi müzakirə olunub. Həmçinin 2022-2025-ci illəri əhatə edən yeni Strateji Plan və onun icrası üzrə fəaliyyət planı, elektron ticarət, gömrük işi sahəsində potensialın gücləndirilməsi və "Yaşıl gömrük" layihəsi ilə bağlı məsələlərə də baxılıb. DGK sədrinin birinci müavini İsmayıl Hüseynov da sessiyada çıxış edib. Tədbir zamanı ikitərəfli görüşlər çərçivəsində Azərbaycan nümayəndə heyətinin rəhbəri İsmayıl Hüseynov ÜGT-nin Avropa regionu üzrə sədr müavini Constantine Mourtides ilə görüşüb. Tərəflər arasında ÜGT-nin Bakı şəhərində yerləşən Avropa Regionu üzrə Potensialın Gücləndirilməsi Ofisinin fəaliyyəti və Ofisin direktoru vəzifəsinə yeni direktorun seçilməsinə dair müzakirələr aparılıb. Bununla yanaşı, Koreya Respublikası Gömrük Xidmətinin rəhbəri T. Yoonla görüş keçirilib, gömrük xidmətləri arasında ikitərəfli əməkdaşlığın perspektivləri və ortaq layihələr barədə fikir mübadiləsi aparılıb.

**24 iyun tarixində** Dövlət Gömrük Komitəsində Böyük Britaniyanın Milli Cinayətlər Agentliyi Ankara ofisinin Azərbaycan üzrə nümayəndəsi Con Qouldinqlə görüş keçirilib. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**29 iyun tarixində** Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsi və "Abbott" şirkəti arasında Anlaşma Memorandumunun imzalanma mərasimi keçirilib. Anlaşma Memorandumu çərçivəsində tərəflər Azərbaycan tibb işçilərinin ürəyin struktur xəstəliklərinin müalicəsi üzrə ixtisaslarının artırılması məqsədilə birgə təşəbbüslərin və elmi-praktik layihələrin həyata keçirilməsinə dair razılığa gəliblər.

**4 iyul tarixində** Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev İsrail Dövlətinin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Corc Dik ilə görüşüb. Görüşdə qarşılıqlı maraq doğuran məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

**6-10 iyun tarixlərində** Macarıstanın paytaxtı Budapeşt şəhərində və 27 iyun-1 iyul tarixlərində Rumıniyanın paytaxtı Buxarest şəhərində Avropa İttifaqının (Aİ) Hüquq-mühafizə Təlimləri Agentliyinin (CEPOL) təşkil etdiyi təlim kurslarında Dövlət Gömrük Komitəsinin Əməliyyat və İstintaq Baş İdarəsinin əməkdaşları iştirak ediblər. CEPOL-un Şərq Tərəfdaşlığı ölkələri üçün nəzərdə tutduğu, Azərbaycanın da iştirak etdiyi, Avropa İttifaqı tərəfindən maliyyələşdirilən və 2020-2024-cü illəri əhatə edən "Mütəşəkkil Cinayətkarlığa qarşı Təlim və Əməliyyat Tərəfdaşlığı" (TOPCOP) layihəsi çərçivəsində təşkil edilən təlimlərə Azərbaycan gömrük xidməti orqanlarının seçilməsi və təlimlərdə iştirakı Dövlət Gömrük Komitəsinin Akademiyası vasitəsilə həyata keçirilib.

**13 iyul tarixində** Ümumdünya Gömrük Təşkilatı təşkilatçılığı ilə Dövlət Gömrük Komitəsinin əməkdaşları üçün "Kontrafaktlığa və piratçılığa qarşı mübarizə" mövzusunda onlayn seminar keçirilib. Seminar zamanı Ümumdünya Gömrük Təşkilatı və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının mütəxəssisləri əqli mülkiyyətin mühafizəsi, COVID-19 zamanı əqli mülkiyyət hüquqlarının pozulması halları, eyni zamanda bu sahədə Azərbaycan gömrüyünün gördüyü işlərlə bağlı təqdimatlar keçirilib, həmçinin hüquq sahibləri qismində müxtəlif şirkətlər tərəfindən seminar iştirakçılarına məlumatlar verilib.

**18 avqust tarixində** Bakıda Türkiyə Respublikasının Hökuməti, Azərbaycan Respublikasının Hökuməti və Gürcüstan Hökuməti arasında Gömrük Məsələləri üzrə Üçtərəfli Komitənin iclası keçirilib. İclasda Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, sədrin vəzifələrini müvəqqəti icra edən, gömrük xidməti general-leytenantı Şahin Bağırovun, Türkiyə Respublikasının ticarət nazirinin müavini, Gömrük İdarəsinin rəhbəri Rıza Tuna Turagayın və Gürcüstanın Gəlirlər Xidmətinin Baş direktoru Levan Kakavanın rəhbərlik etdikləri nümayəndə heyətləri iştirak ediblər. Tərəflər iclas zamanı ölkələrimiz arasında gömrük əməkdaşlığının daha da genişləndirilməsi, gömrük sahəsində aparılan islahatların hər üç ölkədə uyğunlaşdırılması, tranzit potensialının artırılması, hər üç ölkə arasında daşınan yüklərin sərhəd buraxılış məntəqələrində sürətli keçidinin təmin edilməsi ilə yükdaşımalarda vaxta və vəsaitə qənaət, Asiya ilə Avropanı birləşdirən orta dəhlizin cəlbediciliyinin və rəqabətqabiliyyətliliyinin də güclənməsi, gömrük sahəsində birgə nəzarətin təşkili, müasir texnologiyaların tətbiqi baxımından yeni imkanlar barədə fikir mübadiləsi aparıblar. Daha sonra nümayəndə heyətlərinin rəhbərləri tərəfindən "Azərbaycan Respublikası Hökuməti, Gürcüstan Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi çərçivəsində tranzit gömrük prosedurlarının asanlaşdırılması üçün ilkin məlumat mübadiləsinə dair Saziş" və Gömrük Məsələləri üzrə Üçtərəfli Komitənin iclasının protokolu imzalanıb. Sazişin məqsədi hər üç dövlətin ərazisindən keçməklə Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi çərçivəsində tranzit qaydada daşınan yüklərə dair gömrük prosedurlarının asanlaşdırılması üçün ilkin məlumatların elektron mübadiləsinin həyata keçirilməkdir.



**18 avqust tarixində** Bakıda keçirilmiş Türkiyə Respublikasının Hökuməti, Azərbaycan Respublikasının Hökuməti və Gürcüstan Hökuməti arasında Gömrük Məsələləri üzrə Üçtərəfli Komitənin iclası çərçivəsində Azərbaycan və Türkiyə gömrük xidmətlərinin nümayəndə heyətləri arasında ikitərəfli formatda görüş keçirilib. Görüşdə iki qardaş ölkə arasında bütün sahələrdə, o cümlədən gömrük işinin təşkili istiqamətində səmərəli və işgüzar münasibətlərin qurulduğu qeyd olunub, qarşılıqlı təcrübə və məlumat mübadiləsinin gücləndirilməsi, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında müzakirələr aparılıb.

**18 avqust tarixində** Bakda keçirilmiş Türkiyə Respublikasının Hökuməti, Azərbaycan Respublikasının Hökuməti və Gürcüstan Hökuməti arasında Gömrük Məsələləri üzrə Üçtərəfli Komitənin iclası çərçivəsində Azərbaycan və Gürcüstan gömrük xidmətlərinin nümayəndə heyətləri arasında ikitərəfli formatda görüş keçirilib. Görüşdə Azərbaycan və Gürcüstan gömrük xidmətləri arasında qarşılıqlı əməkdaşlığın, məlumat və təcrübə mübadiləsinin gücləndirilməsi, tranzit imkanlarının daha da genişləndirilməsi barədə söhbət açılıb, eləcə də qarşılıqlı maraq doğuran məsələlər ətrafında müzakirələr aparılıb.

**22 avqust tarixində** İran İslam Respublikasının paytaxtı Tehran şəhərində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, sədr vəzifəsini müvəqqəti icra edən, gömrük xidməti general-leytenantı Şahin Bağırovun, İran İslam Respublikası Gömrük Administrasiyasının rəhbəri Əlireza Moqəddəsinin və Rusiya Federal Gömrük Xidmətinin rəhbəri Vladimir Bulavinin rəhbərlik etdikləri nümayəndə heyətlərinin iştirakı ilə üçtərəfli görüş keçirilib. Görüşdə məlumatların əvvəlcədən ötürülməsi və belə mexanizmin yubanmadan tətbiq edilməsi, o cümlədən konkret icra işlərinin həyata keçirilməsi məsələləri həll olunmaqla dəmiryolu vasitəsilə daşınan yüklər də daxil sərhəd buraxılış məntəqələrində yük daşımalarının ləngimələrə məruz qalmayacağı, nəqliyyat dəhlizlərinin cəlbediciliyinin artacağı, əvvəlcədən aparılan ilkin məlumatların elektron mübadiləsi hesabına gömrük prosedurlarının asanlaşdırılacağı diqqətə çatdırılıb. Görüşün sonunda “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi, İran İslam Respublikası Gömrük Adminstrasiyası və Rusiya Federasiyasının Federal Gömrük Xidməti arasında Tranzitin Asanlaşdırılması üzrə Anlaşma Memorandumu” imzalanıb.




**22 avqust tarixində** İran İslam Respublikasına səfər çərçivəsində Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, sədr vəzifəsini müvəqqəti icra edən, gömrük xidməti general-leytenantı Şahin Bağırov ilə İran İslam Respublikası Gömrük Administrasiyasının rəhbəri Əlireza Moqəddəsi arasında ikitərəfli formatda görüş keçirilib. Görüşdə iki ölkənin ərazisindən keçən nəqliyyat vasitələrinə tətbiq edilən gömrük nəzarətini ilkin elektron məlumat mübadiləsi vasitəsilə reallaşdırmaqla sürətli keçidin təmin olunması, iki ölkə arasında tranzit əməliyyatlarının tam elektronlaşdırılmasını nəzərdə tutan "e-TIR Pilot" layihəsinin tətbiq edilməsi, yeni sərhəd-keçid məntəqəsinin açılması ilə bağlı qarşılıqlı fəaliyyətin həyata keçirilməsi və gömrük nəzarəti sahəsində nəticələrin qarşılıqlı tanınması istiqamətində əməkdaşlığın genişləndirilməsi müzakirə olunub.

**23-25 avqust tarixlərində** Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində "Hüquq-mühafizə sisteminin dəstəklənməsi üzrə əmtəə məhsullarının təhlili" (CASE) mövzusunda seminar keçirilib. ABŞ Enerji Departamentinin Milli Nüvə Təhlükəsizliyi İdarəsi tərəfindən ABŞ Dövlət Departamentinin "İxrac Nəzarəti və Əlaqədar Sərhəd Təhlükəsizliyi" (EXBS) proqramı çərçivəsində təşkil olunan seminarın açılışında Dövlət Gömrük Komitəsinin Gömrük Nəzarətinin Təşkili və Ticarətin Asanlaşdırılması Baş İdarəsinin rəisi Kənan Məmmədov, ABŞ-ın Enerji Departamentinin Milli Nüvə Təhlükəsizliyi Agentliyinin qərargah üzrə proqram meneceri Samra Volde-Tensae, Argonne Milli Laboratoriyasının baş mütəxəssisi Ron Orzel, Los Alamos Milli Laboratoriyasının mütəxəssisləri və Komitənin strukturuna daxil olan müvafiq qurumların əməkdaşları iştirak ediblər.

**23-28 avqust tarixlərində** Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində "Strateji ticarət, cinayət üzrə əməliyyat məlumatı, tranzit və bir nəqliyyat vasitəsindən digərinə malların yüklənməsi ilə bağlı saxtakarlıq və ixrac nəzarəti"nə dair təlim keçirilmişdir. Təlimin açılış mərasimində Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayev, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin ekspertləri Adam Baçellor, Ercan Saka, "Konteyner Daşımalarına Nəzarət üzrə Qlobal Proqramı"nın ölkə üzrə milli əlaqələndiriciləri və nəzarət qruplarının üzvləri iştirak edib. Təlim çərçivəsində ekspertlər tərəfindən strateji malların ticarətində milli fəaliyyətin tənzimlənməsi, embarqo və sanksiyaların icmalı, strateji ticarətin ixrac nəzarəti və tranzit daşımalar sahəsində hüquqpozmalar, bir nəqliyyat vasitəsindən digərinə malların yüklənməsi sahəsində hüquqpozmalar, əməliyyat məlumatlarının istifadəsi və digər mövzularda təqdimatlar nümayiş etdirilmiş, milli və qabaqcıl ölkələrin təcrübələrinə dair məlumatlar verilmişdir.

**2 sentyabr tarixində** Dövlət Gömrük Komitəsinin Akademiyası və "Colgate-Palmolive" şirkətinin ölkəmizdəki nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Tərkibində əqli mülkiyyət hüquqlarının obyektləri olan malların gömrük orqanları tərəfindən qorunması" mövzusunda təlim keçirilib. Təlimdə Dövlət Gömrük Komitəsinin strukturuna daxil olan müvafiq qurumların ümumilikdə 23 nəfər gömrük əməkdaşı iştirak edib.

**5 sentyabr tarixində** Dövlət Gömrük Komitəsinin Akademiyasının Türk Standartları İnstitutu (TSE) tərəfindən 3 ISO beynəlxalq sertifikatına layiq görülməsi ilə tədbir keçirilib. Tədbirdə Türkiyə Respublikasının ölkəmizdəki səfiri Cahit Bağçı, Türk Standartları İnstitutunun (TSE) rəhbəri Mahmut Sami Şahin, Dövlət Gömrük Komitəsinin sədr müavini, gömrük xidməti general-mayoru İqbal Babayev, Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi, gömrük xidməti general-mayoru Qulu Novruzov, TSE-nin Azərbaycan nümayəndəliyinin rəhbəri Arzu Gülhan Yüzereroğlu və hər iki qurumun əməkdaşları iştirak ediblər.

**7 sentyabr tarixində** Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, Komitə sədrinin vəzifələrini müvəqqəti icra edən, gömrük xidməti general-leytenantı Şahin Bağırov Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisinin rəhbəri Əsər Çəngəllə fəaliyyət müddətinin başa çatması ilə əlaqədar görüşüb. Görüşdə DGK ilə ÜGT arasında uzun illərə dayanan səmərəli və işgüzar əməkdaşlıqdan söhbət açılıb, Azərbaycan gömrüyünün inkişafında, gömrük sahəsində müasir yeniliklərin tətbiqi, əməkdaşların potensialının gücləndirilməsində təşkilatın mühüm rolundan bəhs edilib.

**23 sentyabr tarixində** Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində "Dopinq vasitələrinin Azərbaycan Respublikasının gömrük sərhədindən qanunsuz keçirilməsi hallarının qarşısının alınması" mövzusunda təlim keçirilib. Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) ekspertləri tərəfindən keçirilən

təlim gömrük əməkdaşlarının maarifləndirilməsi və peşəkarlıqlarının artırılması məqsədilə təşkil edilib. Təlimdə antidopinq sahəsində ümumi məlumat, antidopinq qaydaları və təcrübəsi, qadağan edilmiş siyahı, dopinq preparatları, poçt bağlamaları ilə bağlı qlobal trend, AMADA-nın araşdırmaları və digər mövzularda müzakirələr aparılıb, bu sahədə beynəlxalq təcrübəyə dair məlumat verilib, iştirakçılar üçün praktiki məşğələlər keçirilib.

**24 sentyabr tarixində** Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, sədr vəzifəsini müvəqqəti icra edən, gömrük xidməti general-leytenantı Şahin Bağırov ilə İran İslam Respublikası Gömrük Administrasiyasının rəhbəri Əlireza Moqəddəsi arasında onlayn formatda görüş keçirilib. İki ölkənin ərazisindən keçən nəqliyyat vasitələrinin sürətli keçidinin təmin olunması istiqamətində reallaşdırılan tədbirlərdən bəhs edilən görüşdə mövcud buraxılış məntəqələrində infrastrukturun təkmilləşdirilməsi ilə bağlı görülən işlər diqqətə alınıb, Şərqi Zəngəzur iqtisadi rayonu ərazisində İranla dövlət sərhədində inşa olunacaq yeni sərhəd-keçid məntəqəsinin layihələndirilməsi işinin həyata keçirildiyi və bu istiqamətdə işlərin daha da intensivləşdirilməsinin vacibliyi vurğulanıb, məlumatların əvvəlcədən ötürülməsi və belə mexanizmin tətbiq edilməsinin cari vəziyyəti barədə fikir mübadiləsi aparılıb.

**30 sentyabr tarixində** Azərbaycan və Türkiyə gömrük xidmətlərinin əməkdaşları arasında gömrük nəzarətinin təşkili, gömrük sahəsində milli qanunvericiliklərin tələbləri və icra mexanizmləri ilə bağlı onlayn formatda görüş keçirilib. Görüş Dövlət Gömrük Komitəsi və Türkiyə Respublikasının Ticarət Nazirliyi arasında 2021/2022-ci illər üzrə gömrük işi sahəsində əməkdaşlığın və qarşılıqlı yardımın səmərəliliyinin yüksəldilməsinə dair Tədbirlər Planına müvafiq olaraq təcrübə və məlumat mübadiləsi məqsədilə keçirilib.

**14 oktyabr tarixində** Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, sədr vəzifəsini müvəqqəti icra edən, gömrük xidməti general-leytenantı Şahin Bağırov Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisinin yeni rəhbəri Narynkul Tagainazar ilə görüşüb. Görüşdə ÜGT-nin Bakı şəhərindəki Avropa Regional Ofisinin fəaliyyəti ilə əlaqədar müzakirələr aparılıb, əməkdaşlıq imkanlarının genişləndirilməsi və əlaqələrin inkişafının zəruriliyi vurğulanıb.

**18 oktyabr tarixində** Azərbaycan və İran gömrük xidmətləri arasında onlayn formatda görüş keçirilib. Hər iki qurumun informasiya texnologiyalarına cavabdeh struktur bölmələri rəhbərlərinin iştirakı ilə keçirilən görüşdə mal və nəqliyyat vasitələrinə dair məlumatların əvvəlcədən elektron qaydada mübadiləsinin gücləndirilməsi məsələləri müzakirə olunub.

**20 oktyabr tarixində** Dövlət Gömrük Komitəsində ABŞ-ın Narkotiklərlə Mübarizə Administrasiyasının Ankara ofisinin rəhbərliyi ilə görüş keçirilib. Görüşdə iki qurum arasındakı işgüzar münasibətlərdən bəhs olunub, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə əməkdaşlığın gücləndirilməsinin əhəmiyyəti vurğulanıb. Həmçinin məlumat və təcrübə mübadiləsinin genişləndirilməsi, qarşılıqlı maraq doğuran məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

**21 oktyabr tarixində** Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin, Mərkəzi Gömrük Hospitalının, Azərbaycan Reanimatoloqlar və Anestezioloqlar Cəmiyyətinin və Azərbaycan Ürək və Sağlamlıq Assosiasiyası İctimai Birliyinin birgə təşkilatçılığı ilə “Orqan və toxuma transplantasiyasında Beyin ölümü diaqnozunun aktual aspektləri” mövzusunda Beynəlxalq Elmi Konfrans keçirilib. 200-dən çox mütəxəssisin əyani, 500-dən çox mütəxəssisin distant iştirak etdiyi konfrans gün ərzində “Beyin ölümü diaqnozunun təyin edilməsi”, “Beyin ölümü diaqnozunun orqan və toxuma transplantasiyası işinin təşkilində əhəmiyyəti” və “Orqan bağışı və transplantasiyası işinin sosial-ictimai aspektləri” panelləri ilə öz işini davam etdirib.

**25 oktyabr tarixində** Ümumdünya Gömrük Təşkilatı Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində Dövlət Gömrük Komitəsi rəhbərliyinin “Trans-Xəzər” nəqliyyat dəhlizinin imkanlarının araşdırılması və öyrənilməsi məqsədilə ölkəmizdə səfərdə olan Yaponiya nümayəndə heyəti ilə görüşü keçirilib. Görüşdə “Trans-Xəzər” nəqliyyat dəhlizinin yaranma tarixi, İpək yolunun canlandırılmasında əhəmiyyəti, Avropa ilə Asiyanı birləşdirən önəmli marşrut olduğu xüsusi vurğulanaraq coğrafi və iqtisadi cəhətdən səmərəli olan bu dəhlizin beynəlxalq ticarətdə, eləcə də turizm imkanları baxımından da cəlbedici olduğu diqqətə çatdırılıb. Sonra Dövlət Gömrük Komitəsi tərəfindən “Gömrük prosedurları və əməliyyatları” mövzusunda təqdimat keçirilib və qonaqları maraqlandıran suallar cavablandırılıb.

**28 oktyabr tarixində** Dövlət Gömrük Komitəsinin Akademiyasında Avropa İttifaqı tərəfindən maliyyələşdirilən Erasmus+ proqramının “Ali Təhsildə Potensialın Gücləndirilməsi” kateqoriyası üzrə “Work4CE” konsorsium layihəsi çərçivəsində beynəlxalq tədbir keçirilib. Pilot təlimləri və layihə görüşünü əhatə edən tədbirdə Dövlət Gömrük Komitəsinin sədrinin müavini, gömrük xidməti general-mayoru İqbal Babayev, Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi Qulu Novruzov, Ukraynanın Azərbaycandakı Səfirliyinin birinci katibi Yevhen Osadcyi, layihənin koordinatoru prof. Qalina Tabunşçük, layihəyə üzv olan digər xarici və yerli ali təhsil müəssisələrinin təmsilçiləri, eləcə də Akademiyanın tərəfdaş qurumlarının nümayəndələri iştirak ediblər.

**1-2 noyabr tarixlərində** Bakı şəhərində Ümumdünya Gömrük Təşkilatının MDB ölkələri üzrə hüquq-mühafizə fəaliyyətinə dair RILO-Moskva Regional Məlumat Əlaqələndirmə Qovşağının iştirakçı ölkələrinin gömrük xidmətlərinin milli əlaqələndirmə qovşağı rəhbərlərinin 21-ci iclası keçirilib. ÜGT-nin Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində keçirilən iclasa Azərbaycan, Qırğız, Tacikistan, Belarus və Rusiya gömrük xidmətlərinin nümayəndələri qatılıb.

**7 noyabr tarixində** Ümumdünya Gömrük Təşkilatının modernləşdirilməsi mövzusunda Virtual Avropa Regional Məsləhətləşmələri keçirilib. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin nümayəndə heyətinin də qatıldığı onlayn tədbirdə Ümumdünya Gömrük Təşkilatının modernləşdirilməsi planı müzakirə olunub, Fəaliyyət və təsirin qiymətləndirilməsi, ÜGT layihələrinin idarə olunması, ÜGT-nin regional qurumları, İnsan resurslarının idarəedilməsi, Donorların maliyyələşdirilməsi siyasəti və maliyyə davamlılığı və digər mövzularda təqdimatlar nümayiş etdirilib, fikir mübadiləsi aparılıb.

**15-18 noyabr tarixlərində** Dövlət Gömrük Komitəsinin Akademiyası Qırğız Respublikası Maliyyə Nazirliyi yanında Dövlət Gömrük Xidmətinin əməkdaşları üçün “Gömrük nəzarətinin səmərəli həyata keçirilməsi üsulları” mövzusu üzrə onlayn təlimlər keçirilib. Təlimlər Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Qırğız Respublikası Hökuməti yanında Dövlət Gömrük Xidməti arasında imzalanmış “Kadrların peşəkar hazırlığı və ixtisasının artırılması sahəsində əməkdaşlıq haqqında” Protokola əsasən təşkil edilib.

**18 noyabr tarixində** Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, sədr vəzifəsini müvəqqəti icra edən, gömrük xidməti general-leytenantı Şahin Bağırov ölkəmizdə səfərdə olan Rusiya Federal Gömrük Xidmətinin rəhbəri Vladimir Bulavinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə iki ölkə arasında mövcud dövlət sərhədindən buraxılış məntəqələrində nəqliyyat vasitələrinin sürətli keçidinin təmin olunması üçün əlverişli şəraitin yaradılması sahəsində qarşılıqlı əməkdaşlıq məsələləri, sərhəddə yaranan sıxlığın hökumətlərarası görüşlərin nəticəsi əsasında aradan qaldırılmasının diqqətdə saxlanılması və bu istiqamətdə gömrük orqanlarının fəaliyyət sahəsinə aid məsələlərin həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.



**28 noyabr tarixində** Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, sədr vəzifəsini müvəqqəti icra edən, gömrük xidməti general-leytenantı Şahin Bağırov Türkiyə Respublikasının Azərbaycandakı səfirliyinin Ticarət Müşavirliyinin nümayəndələri - Ahmet Erdal, Yakup Sefer və Murat Yaman ilə görüşüb. Görüşdə qarşılıqlı maraq doğuran bir çox məsələlər ətrafında müzakirələr aparılıb.




**5-9 dekabr tarixlərində** Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində Koreya Gömrük Əməkdaşlıq Fondu Tərəfindən maliyyələşən "Harmonik Sistem" üzrə Ümumdünya Gömrük Təşkilatının milli seminarı keçirilmişdir. Seminarda DGK Gömrük Tariflərinin Tənzimlənməsi və Ödənişlər Baş İdarəsinin rəisi, gömrük xidməti general-mayoru Mirqasım Vahabov, ÜGT Katibliyinin texniki əməkdaşları – Yara Novis, Sujin Yuk və gömrük əməkdaşları iştirak etmişlər.

**5-7 dekabr tarixlərində** Bəhreyn Krallığının Manama şəhərində Ümumdünya Gömrük Təşkilatının Siyasi Komissiyasının 87-ci sessiyası keçirilib. İclasda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, sədr vəzifəsini müvəqqəti icra edən, gömrük xidməti general-leytenantı Şahin Bağırovun rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib. Siyasi Komissiyanın 24 üzv dövlətlərinin nümayəndələrinin qatıldığı sessiyada ÜGT Şurasının sədri Şeyx Əhməd bin Hamad Əl Xəlifənin məruzəsi dinlənilib, ÜGT Baş katibi Kunio Mikuriya Strateji planın tətbiqi üzrə tərəqqi hesabatı təqdim edilib. Həmçinin "ÜGT-nin 2022-2025-ci illər üzrə strateji planı və 2023-2024-cü illər üzrə icra planı", "Təşkilatın maliyyə perspektivləri", "Yaşıl gömrük", "Hibrid gömrük idarələrinə doğru inkişaf" və "ÜGT-nin məlumat strategiyası: məlumat və statistika üzrə işçi qrupun fəaliyyəti haqqında yenilənmiş məlumatlar", "ÜGT-nin məlumat strategiyası: saxlanılmalara dair məlumatların toplanması və təhlili", "ÜGT-nin həssas sərhədlər üzrə fəaliyyət planı və qlobal konfransı", "Qanunsuz ticarət və digər beynəlxalq təşkilatların fəaliyyəti", "Gender bərabərliyi və müxtəliflik - tərəqqi hesabatı", "ÜGT-nin seçki proseslərinə dair təlimatlar - icraya dair

yenilənmiş məlumatlar", "ÜGT-nin modernləşdirmə planının hazırlanması üzrə tərəqqi hesabatı", "Baş katibin seçkiləri üzrə davranış kodeksi" mövzularında hesabatlar dinlənilib, müzakirələr aparılıb.




**5 dekabr tarixində** Ümumdünya Gömrük Təşkilatının Siyasi Komissiyasının 87-ci sessiyası çərçivəsində Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, sədr vəzifəsini müvəqqəti icra edən, gömrük xidməti general-leytenantı Şahin Bağırov ilə Bəhreyn Krallığı Gömrük Xidmətinin rəhbəri Əhməd bin Hamad Əl Xəlifə arasında görüş keçirilib. Görüşdə iki ölkənin gömrük işi sahəsində əməkdaşlığından, o cümlədən ticarət əlaqələrinin inkişaf etdirilməsindən bəhs edilib, Bəhreyn Krallığının əməkdaşlıqda önəm verdiyi 10 əsas ölkədən birinin Azərbaycan Respublikası olduğu vurğulanıb. Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında da müzakirələr aparılıb.

**5 dekabr tarixində** Ümumdünya Gömrük Təşkilatının Siyasi Komissiyasının 87-ci sessiyası çərçivəsində Bəhreyn Krallığının paytaxtı Manama şəhərində səfərdə olan Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin nümayəndə heyəti ilə ABŞ Gömrük və Sərhəd Mühafizəsi Xidməti nümayəndə heyətinin rəhbəri İan Saunders arasında görüş keçirilib. Görüşdə, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**6 dekabr tarixində** Ümumdünya Gömrük Təşkilatının Siyasi Komissiyasının 87-ci sessiyası çərçivəsində "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Bəhreyn Krallığının Gömrük Xidməti arasında gömrük əməkdaşlığı haqqında Anlaşma Memorandumu" imzalanıb. Sənədi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, sədr vəzifəsini müvəqqəti icra edən, gömrük xidməti general-leytenantı Şahin Bağırov və Bəhreyn Krallığı Gömrük Xidmətinin rəhbəri Əhməd bin Hamad Əl Xəlifə imzalayıblar. Anlaşma Memorandumu gömrük prosedurlarının tətbiqinin səmərəliliyini artırmağa kömək edən məlumatların mübadiləsi, gömrük işi sahəsində işçi görüşlərin, təlim kursları, seminarların təşkili, malların qanunsuz ticarəti ilə mübarizə, gömrük nəzarətinə dair təcrübə, gömrük qanunvericiliyinin pozulmasının qarşısının alınması və araşdırılması üzrə məlumat və üsulların mübadiləsi və s. məsələləri əhatə edir.

**7 dekabr tarixində** Bəhreyn Krallığının paytaxtı Manama şəhərində keçirilən Ümumdünya Gömrük Təşkilatı Siyasi Komissiyasının 87-ci sessiyası çərçivəsində Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, sədr vəzifəsini müvəqqəti icra edən, gömrük xidməti general-leytenantı Şahin Bağırov ÜGT-nin Avropa Regionu üzrə sədr müavini, Yunanıstan Respublikası Gömrük və Aksiz Baş Direktorluğunun Baş direktoru Konstantinos Mourtidis ilə görüşüb. Görüşdə ümumi razılıq əsasında görüləcək növbəti işlər müəyyən edilib.

**8 dekabr tarixində** Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Türkiyə Respublikası Dilucu Gömrük İdarəsi arasında “Dilucu” sərhəd-buraxılış məntəqəsində gömrük əməkdaşlığı çərçivəsində görüş keçirilib. Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-mayoru Bəhruz Quliyevin və Dilucu Gömrük İdarəsinin rəisi vəkili Erdan Esenin rəhbərlik etdikləri nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə nəqliyyat vasitələrinin sürətli keçidinin təmin olunması və bu istiqamətdə imkanların artırılması məsələləri müzakirə edilib.

**9 dekabr tarixində** Dövlət Gömrük Komitəsinin Akademiyasında İsveçin Lund Universitetinin nümayəndələri ilə görüş keçirilib. Görüşdə hər iki ali təhsil müəssisəsinin fəaliyyəti, beynəlxalq əməkdaşlıq sahəsində nailiyyət və prioritetləri, beynəlxalq əməkdaşlıq əlaqələri haqqında təqdimatlar nümayiş olunub. Daha sonra tələbələrin Universitetlə bağlı sualları qonaqlar tərəfindən ətraflı cavablandırılıb.

**9 dekabr tarixində** Qazaxıstan Respublikasının Aktau şəhərində MDB üzv dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının 75-ci iclası keçirilib. Tədbirdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, sədr vəzifəsini müvəqqəti icra edən, gömrük xidməti general-leytenantı Şahin Bağırovun rəhbərliyi ilə nümayəndə heyəti iştirak edib.

**12-16 dekabr tarixlərində** Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində “Strateji ticarət və ixrac nəzarətinə tətbiq oluna bilən təhlil üsulları” mövzusunda təlim keçirilib. Tədbirdə Dövlət Gömrük Komitəsinin Əməliyyat-İstintaq Baş İdarəsi rəisinin birinci müavini, rəis vəzifəsini müvəqqəti icra edən, gömrük xidməti general-mayoru Güloğlan Muradlı, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin ekspertləri Oksana Nazarcuk, Ercan Saka və gömrükçülər iştirak ediblər.

**12-13 dekabr tarixlərində** Avropa İttifaqının Hüquq-Mühafizə Təlimləri Agentliyinin (CEPOL) və Aİ Hüquq-Mühafizə Əməkdaşlığı Agentliyinin (EUROPOL) icra etdiyi “Mütəşəkkil Cinayətkarlığa qarşı Təlim və Əməliyyat Tərəfdaşlığı” (TOPCOP) layihəsi çərçivəsində CEPOL tərəfindən Macarıstan Respublikasının Budapeşt şəhərində Strateji Əməkdaşlıq Forumu keçirilib. Dövlət Gömrük Komitəsi Əməliyyat-İstintaq Baş İdarəsi rəisinin birinci müavini, rəis vəzifəsini müvəqqəti icra edən Güloğlan Muradlı, Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi Qulu Novruzov və Akademiyanın beynəlxalq əməkdaşlıq üzrə koordinatoru, TOPCOP layihəsi çərçivəsində potensialın artırılması üzrə əlaqələndirici şəxs Elvin Mecidov CEPOL Forumunda iştirak ediblər.

**14 dekabr tarixində** Azərbaycan-Gürcüstan sərhədində “İpək Yolu - Abreşumis Qza” birgə buraxılış məntəqəsinin təsis edilməsi ilə bağlı hər iki tərəfin müvafiq dövlət qurumlarının nümayəndələrindən ibarət işçi qrupların ilk görüşü keçirilib. Tədbir Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Qərb Ərazi Baş Gömrük İdarəsinin Ticarətin Asanlaşdırılması Mərkəzində gerçəkləşib. Nümayəndə heyətlərinə Azərbaycan tərəfdən Dövlət Gömrük Komitəsinin sədr müavini, gömrük xidməti general-mayoru Cavad Qasımov, Gürcüstandan Gəlirlər Xidməti rəhbərinin müavini Vladimer Xundadze başçılıq ediblər. İclasda 29 sentyabr 2021-ci il tarixində Bakı şəhərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında Azərbaycan Respublikası və Gürcüstan arasında dövlət sərhəd buraxılış məntəqələri haqqında Saziş”ə əsasən yaradılacaq “İpək Yolu - Abreşumis Qza” birgə gömrük-sərhəd buraxılış məntəqəsinin təsis edilməsi ilə bağlı hüquqi, maliyyə və texniki məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**26 dekabr tarixində** Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, sədr vəzifəsini müvəqqəti icra edən, gömrük xidməti general-leytenantı Şahin Bağırov Moldova Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Aleksandr Esaulenko ilə görüşüb. Görüşdə Azərbaycan ilə Moldova arasında ikitərəfli münasibətlərin uzun illər ərzində uğurla inkişaf etdiyi vurğulanıb, müxtəlif istiqamətlər üzrə, o cümlədən gömrük sahəsində səmərəli əməkdaşlıqdan məmnunluqla bəhs edilib. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.